**UOT 327**

# BÖYÜK BRİTANİYANIN KİPRDƏ ENERJİ SİYASƏTİ

**Səbinə ƏLİYEVA***

***Açar sözlər:** Kipr adası, Böyük Britaniya, hərbi bazalar,enerji maraqları*

## *XÜLASƏ*

Kipr adasında 2 Böyük Britaniyanın hərbi bazası var: Dikeliya və Akrotiri. Kiprdə söz sahibi olan, adada siyasi, hərbi mənfəətlərə malik İngiltərənin adaya iqtisadi marağı getdikcə daha da artmaqdadır. Adada həyata keçirilən bütün iqtisadi layihələr İngiltərənin iqtisadi maraqlarına ziddir. İngiltərə müstəsna iqtisadi bölgənin Kipr Respublikasına aid olduğunu təkid etməklə qarant dövlət statusundan irəli gələn hüquqlarının davam etməsinə çalışır. Bazaların yerləşdiyi bölgədə ərazi suları elan etməsi və kontinental şelf məsələsinin gündəmə gətirilməsi, daha sonra Müstəsna İqtisadi Bölgə elan edəcəyi gözlənilir. Böyük Britaniya bu addımı atarsa, bu, regionun enerji balansını ciddi şəkildə dəyişəcək. Belə ki, Birləşmiş Krallıq həm region ölkələri ilə dəniz sərhədlərinin müəyyənləşdirilməsi ilə bağlı müqavilələr bağlamalı, həm də regionda kəşfiyyat və qazma işləri aparan şirkətlərlə lisenziyalaşdırma fəaliyyətlərinə başlamalıdır. Eyni zamanda ingilis şirkətləri bölgənin təbii qaz yataqlarında söz sahibi olmağa başlamışdır. İngiltərənin ada üzərindəki varlığı tədricən hərbi sahədən iqtisadi sahəyə keçir.

### Giriş

Şərqi Aralıq dənizi regionunda əlverişli geosiyasi mövqeyə malik Kipr adası 3 qitədən keçən, Qərblə Şərqi birləşdirən yolların birləşmə nöqtəsində yerləşir, bu baxımdan qərbin şərq ilə əlaqələrinin sabitliyi baxımından çox əhəmiyyətlidir. Eyni zamanda Türkiyənin cənubunda, Suriyanın qərbində, İsrailin şimal-qərbində, Misirlə Süveyş Kanalının şimalında yerləşməsi, Suriya, Livan, İsrail və Misir sahillərindəki neft boru xətlərinin çıxış nöqtələrinə nəzarət edə biləcək mövqedə olması Kiprin strateji əhəmiyyətini artırır, Şərqi Aralıq dənizi regionunu nəzarət altında saxlamaq imkanı verir. Bu baxımdan Şərqi Aralıq dənizi bölgəsi və ona bağlı Kipr adası əsrlər boyu böyük dövlətlərin siyasi, ticari və hərbi mübarizə meydanına çevrilmişdir. 1869-cu ildə Süveyş kanalının açılması ilə dünya ticarəti açıq dənizlərdən Aralıq dənizi hövzəsinə yönəlmiş və nəticədə Kipr adasının strateji və siyasi dəyəri daha da artmışdır. Kipr bu regionu Qərbi Avropa ilə birləşdirən ən qısa dəniz yolu üzərində yerləşir və bu, müstəmləkə ölkələrinə ciddi üstünlüklər verirdi. Beləliklə, İngiltərə adanın bu xüsusiyyətindən "strateji məqsəd" kimi istifadə etməyi nəzərdə tutur, hətta Anadolu və Orta Şərqə yönəlik strateji fəaliyyətlərində adadan baza kimi istifadə etməyə çalışırdı. Bu səbəbdən I Dünya müharibəsində Kipr Antanta dövlətləri, xüsusilə ingilis və fransızlar üçün "hərbi baza", həmçinin müttəfiq dövlətlərə qarşı "təbliğat və casusluq mərkəzi" olmuşdur. Xüsusilə də, məlumdur ki, Elefterios Venizelosun başçılığı ilə yunan hökuməti tərəfindən Livanda maronitlərə verilən və türklərlə mübarizə üçün göndərilən silahlar Kiprdən keçib (10, s.168).

### I. Kipr adasının İngiltərənin əlinə keçməsi

1877-1878-ci illərdə Rusiya-Osmanlı imperiyası arasındakı Rusiyanın qələbəsi ilə yekunlaşmış müharibənin bitməsindən sonra imzalanan San-Stefano sülh müqaviləsinin yaratdığı yeni siyasi mühit İngiltərəni narahat edirdi. Rusiyanın bölgədə möhkəmlənməsinin qarşısını almaq məqsədilə İngiltərə 25 mayda Osmanlı dövlətinə Rusiyaya qarşı ittifaq yaratmağı təklif etdi. Tərəflər arasında

**Bakı Slavyan Universiteti*
*E-mail: aliyevasabina23@ymail.com*

4 iyun 1878-ci ildə imzalanmış 2 maddəlik müdafiə haqqında müqaviləyə əsasən Rusiya Osmanlı dövlətinin Asiyadakı ərazilərinə hücum edəcəyi təqdirdə İngiltərə Osmanlı ilə birlikdə Rusiyaya qarşı silahlı mübarizə aparacağı öhdəliyini götürmüş və bunun qarşılığında Osmanlı dövləti Kipr adasını müvəqqəti olaraq İngiltərəyə verməyi qəbul etmişdir (11, s.135). Lakin bu müqavilə imzalanmadan 5 gün əvvəl İngiltərə 30 mayda Rusiya ilə gizli saziş bağlamışdır. Bu saziş Berlin Konfransında ortaya çıxmış, nəticədə Osmanlı dövləti Kiprin İngiltərəyə verilməsi haqqında müqaviləyə əlavə maddələrin qoyulmasına nail olmuşdur. 1 iyul 1878-ci ildə imzalanmış 5 maddəlik əlavə müqavilədə İngiltərə Rusiyanın Qarsı və Şərqi Anadoluda işğal etdiyi torpaqları geri qaytardığı təqdirdə Kipri geri qaytaracağını qəbul etmişdir (11, s.140). 7 iyulda adanın idarəçiliyinin İngiltərəyə verilməsi haqqında fərman verildi. 12 iyulda ingilis hərbiçiləri adaya girərək idarəçiliyi ələ keçirdi (13). Beləliklə, San-Stefano müqaviləsinin yenidən müzakirəsi məqsədilə çağırılmış Berlin Konfransında Kipr adasının Osmanlı tərəfindən İngiltərəyə icarəyə verilməsi qərara alındı və adada 1878-1960-cı illəri əhatə edən İngiltərə idarəçilik dövrü başladı. İngiltərə Osmanlı dövlətinin I dünya müharibəsində iştirakını səbəb göstərərək 5 noyabr 1914-cü ildə Kipri ilhaq etdi. Hətta müharibə zamanı kiprli türklərə yerli yunan hərbiçilərinin də yardımı ilə təzyiq göstərirdi (9, s.56). Bundan başqa, həmin dövrdə Kiprdə ermənilərdən və yunanlardan ibarət bəzi komitələrin İskəndəruna və ya Türkiyənin digər bölgələrinə planlaşdırılan müdaxilə məqsədilə "hərbi hazırlığı" həyata keçirilib.

İngiltərənin adada ən böyük marağı Aralıq dənizində Cəbəllütariq, Malta və Kipr zəncirini formalaşdırmaq istəyi idi. Belə ki, İngiltərə qərbi Aralıq dənizindən Şərqi Aralıq dənizinə qədər əhəmiyyətli əraziləri ələ keçirmişdir: 1704-cü ildə Cəbəllütariqi, 1813-cü ildə Maltanı, 1878-ci ildə Kipri və 1882-ci ildə Misiri. Beləliklə, Aralıq dənizindən keçən, qərbdən şərqə doğru uzanan müdafiə xətti yaratmışdır (13, s.24-26). Həmçinin Kiprin Maqosa limanı ingilis malları üçün bazar kimi də çox əhəmiyyətlidir (2, s.174).

1878-ci ildən bu günədək İngiltərə Kipr adasından əl çəkməmiş, ada üzərində söz sahibi olduğunu daim göstərməyə çalışmışdır. Kiprdə iki hərbi bazaya malik olmaqla İngiltərə öz təhlükəsizlik strategiyasını həyata keçirmək, o cümlədən Aralıq dənizi və Orta şərq siyasətini inkişaf etdirmək və regionda ticari, iqtisadi və hərbi gücünü qorumaq imkanına malikdir.

Əslində İngiltərə üçün adanın əhəmiyyəti ilk əvvəllər Hindistana gedən yolun təhlükəsizliyini təmin etməkdən ibarət idi. Lakin getdikcə ada İngiltərə üçün daha çox maraq kəsb etməyə başlamış, xüsusilə də, Aralıq dənizində 1935-ci ildə ingilislərin varlığına qarşı italyan təhlükəsinin yaranması İngiltərənin ada ilə daha yaxından maraqlanmasına səbəb olmuşdur. II Dünya müharibəsindən sonra Hindistan müstəqillik əldə etdikdən sonra adanı əldən verməmək, eyni zamanda bölgədəki enerji maraqlarını qorumaq üçün İngiltərə Orta Şərqdə hərbi bazasının olmasını mütləq hesab edirdi. Lakin Şərqi Aralıq dənizində hərbi və siyasi varlığını davam etdirmək əvəzinə 1946-cı ildən bölgədən tədricən uzaqlaşmaq məcburiyyətində qalmışdır. Xüsusilə də, 1948-ci ildə Fələstindən çıxmasından sonra İngiltərənin əlində hərbi baza kimi istifadə edə biləcəyi yalnız Kipr adası və Süveyş kanalı qalmışdır ki, daha sonra bölgədən ingilis və fransızların çıxarılmasına yönəlmiş ərəb milliyyətçiliyi və Nasir hərəkatı nəticəsində İngiltərə Süveyşdən də çəkilməyə məcbur olmuş və əlində yalnızca Kipr qalmışdır.

II Dünya müharibəsindən sonra əvvəlki gücünü itirən İngiltərə Kiprlə bağlı siyasətini dəyişdirməli oldu. Orta Şərqdə və Aralıq dənizi regionunda siyasi gücünü tədricən itirsə də, Orta Şərqdəki maraqlarından əl çəkmir, Kiprdə suverenliyini qorumağa çalışırdı. İngiltərənin o dövrdə baş naziri E.İden hesab edirdi ki, İngiltərənin sənaye həyatı İran körfəzindəki neft yataqlarına bağlı olduqca Kipr adası İngiltərə üçün strateji əhəmiyyət daşıyacaq (4, s.113). Bu səbəbdən İngiltərə Kipr probleminin həlli ilə bağlı təklif edilən "öz müqəddəratını təyin etmə" prinsipinə qarşı çıxırdı.

Ümumiyyətlə, İngiltərənin Kiprlə bağlı siyasəti müxtəlif vaxtlarda fərqli olmuşdur. İngiltərənin Kipr məsələsinin həlli üçün Türkiyə və Yunanıstan arasında vasitəçi rolunu oynamağa çalışmasının əsas səbəbi adadakı maraqlarını qorumaq niyyətidir. Həmçinin adada sabitliyin təmin edilməsi Britaniya bazalarının effektli istifadəsi üçün mühüm amildir. Böyük Britaniya təkcə Kiprdə deyil, regionda ümumi balansa və konyunkturaya xüsusi diqqət yetirir. Bu səbəbdən Britaniyanın maraq-

ları regionun digər dövlətlərinin maraqları ilə toqquşur. Məsələn, İngiltərə həmişə Yunanıstanın "Enozis" arzusuna öz nöqteyi-nəzərindən və adada öz bazalarının mövqeyindən baxırdı. Türkiyə-Yunanıstan münasibətləri gərginləşdikcə, Britaniya yeni strategiyalar hazırlayıb və tərəflər arasında vasitəçilik rolu oynamağa çalışmışdır.

İngiltərə həm qərbin nüfuzlu aktorlarından biri, həm də Kiprdə haqq və mühüm mənfəətləri olan qarant dövlətdir. 1960-cı il Kipr Respublikasının yaradılması haqqında Müqavilə (7, mad.1), London, Sürix sazişlərinə görə ingilislərin suveren baza bölgəsi statusuna malik Akrotiri və Dekeliya bazaları İngiltərənin adada varlığını qanuniləşdirir. İngiltərə məhz bu bazaları hesabına adada ərazi suları bölgəsinin olduğunu elan etmişdir. Britaniyanın bu regionda "Kontinental şelfdən" sonra müstəsna iqtisadi zona elan edəcəyi gözlənilir. Çünki bu bazalar bir növ "müstəqil dövlət" statusuna malikdir. Britaniyanın hərbi bazaları ümumi 254 kv.km-lik ərazini əhatə edir ki, bu da adanın 3%-i deməkdir. Bu ərazinin 60%-i xüsusi mülkiyyət torpaqlarından ibarətdir və burada xüsusi şəxslər tərəfindən əkinçilik fəaliyyəti həyata keçirilir. Kiprin 7000-ə yaxın yunan vətəndaşı 1974-cü ildən bəri burada yaşamağa başlamışdır. Bu bazalar ingilislərin təhlükəsizlik və Orta şərqdəki neft mənfəətinin qorunması baxımından çox əhəmiyyətlidir. Soyuq müharibə dövründə bu bazalar Sovet İttifaqına qarşı cənub-şərq qanadının möhkəmləndirilməsi məqsədilə istifadə edilmişdir.

2004-cü ildə İngiltərə Annan Planı çərçivəsində 117 kv.km-lik əkin sahəsini yeni formalaşdırılacaq dövlətə verməyi təklif etmiş, lakin bu təklif planla birlikdə rədd edilmişdir. Bu planda adada ingilislərin mövcudluğunu qoruyan müddəalar öz əksini tapmışdır. Bu müddəalara əsasən, adada suveren ingilis bazalarının mövcudluğu və qanuni statusu Kipr sazişlərinin ayrılmaz hissəsidir. Lakin Türkiyənin adadakı varlığı adanın şimalında "hərbi işğal" kimi qiymətləndirilir. İngiltərə bazalarının itirilməsindən narahat olaraq, Zəmanət haqqında sazişin dəyişdirilməməsinə çalışır. Kipr Respublikasının yaradılması haqqında Sazişdə (7, Əlavə A, 3-cü hissə) Kiprdə yeni dövlətin ingilis bazalarına bitişik sular (ərazi suları) üzərində suverenlik iddia etməyəcəyi qeyd edilmiş, eyni zamanda mübahisələrin beynəlxalq məhkəməyə və üçüncü tərəfə verilməməsi öhdəliyi əks olunmuşdur.

**II. Britaniyanın Kiprdə iqtisadi maraqları**

2000-ci illərin əvvəlində Kiprin şərq hissəsində kəşf edilmiş təbii qaz ehtiyatları Kipr məsələsini yenidən gündəmə gətirmişdir.

Şərqi Aralıq dənizi regionu fiziki quruluşu etibarilə dar olduğuna və bu bölgədəki ölkələrin sərhədlərinin toqquşması problem olduğuna görə bu bölgədəki dövlətlər digər sahilyanı dövlətlərlə müqavilələr deyil, ikitərəfli sazişlər bağlamağa və birtərəfli qaydada müstəsna iqtisadi zona elan etməyə üstünlük verirlər (3, s.2). Kiprin yunan rəhbərliyi 17 fevral 2003-cü ildə Misirlə Şərqi Aralıq dənizi regionundakı dəniz yataqlarından birgə istifadə üçün müstəsna iqtisadi zonanın delimitasiyasını nəzərdə tutan müqavilə imzalamışdır. 2004-cü ildə isə bu müqaviləni BMT ratifikasiya etmiş və ada rəsmi olaraq müstəsna iqtisadi bölgə elan edilmişdir. 17 yanvar 2007-ci ildə Livanla orta xətt prinsipinə əsaslanan müstəsna iqtisadi zonanın sərhəd xətlərinin dəqiqləşdirilməsi haqqında saziş imzalayıb. 26 yanvar 2007-ci il tarixində Kipr rəhbərliyi adanın cənubunda Misir və Livan ilə müəyyən etdiyi sərhədlər çərçivəsində 13 neft kəşfiyyat yatağını elan etdi və bu yataqların lisenziyalaşdırılması üzrə 3 tur tender keçirdi, beynəlxalq neft şirkətlərini neft ehtiyatlarının kəşf edilməsi və istismarı üçün bu yataqlara dəvət etdi. Kiprin yunan hökumətinin elan etdiyi 13 yatağın ümumi sahəsi 70 000 kv.km-dir (3, s.3). 1, 4, 5, 6 və 7 nömrəli yataqlar Türkiyənin Şərqi Aralıq dənizi regionundakı kontinental şelf və mümkün müstəsna iqtisadi zona ilə qismən üst-üstə düşür (8).

Texnoloji inkişaf nəticəsində su altında daha dərin məsafədə neft və təbii qaz axtarışları mümkün olmuşdur. 2009-cu ildə İsraildə ABŞ-ın Noble Enerji şirkəti və İsrailin Delek şirkətinin əməkdaşlığı ilə Tamar bölgəsində aparılmış axtarışlar nəticəsində təbii ehtiyatlar kəşf edilmişdir. 2011-ci ildə isə Kipr sahillərində Afrodita zonasında təbii qaz yataqları aşkar edilmişdir.

Kiprin yunan rəhbərliyi tərəfindən 17 dekabr 2010-cu ildə Nikosiyada İsrail ilə orta xətt prinsipi üzrə müstəsna iqtisadi zonanın delimitasiyası haqqında saziş imzalanıb. 2019-cu ilin 17 sent-

yabrında yataqların istismarı üçün ENİ və TOTAL firmaları ilə saziş imzalanmış, 2019-2020-ci illərdə 9 fərqli qazma işlərinin hədəfləndiyi açıqlanmışdır (3, s.3).

2013-cü ilə qədər Kiprin yunan idarəçiliyi təbii qazın adanın türk əhalisi ilə paylaşması məsələsində istəksiz idi. Lakin bu mövqe qəflətən dəyişmiş, təbii qazı bütün kiprlilərlə paylaşa biləcəklərini açıqlamışdırlar. Bu məsələdə ABŞ, Aİ-nin məsələyə münasibəti ilə yanaşı Kipr Respublikasının yaradılması haqqında Müqavilənin də təsiri olmuşdur. Şərqi Aralıq dənizində kəşf edilmiş təbii qaz ehtiyatlarının bölüşdürülməsi məsələsində qərbin söz sahibi olmaq istəməsi ilə 2012-ci ildə dayandırılmış Kiprlə bağlı danışıqlar bərpa olundu. Qazın Avropaya təhlükəsiz nəql olunması üçün Qərb Kipr məsələsinin təcili şəkildə həll olunmasını istəyir.

Kiprdə söz sahibi olan, adada siyasi, hərbi mənfəətlərə malik İngiltərənin adaya iqtisadi marağı getdikcə daha da artmaqdadır. O illərdə Britaniya parlamentinin üzvü olmuş leyborist partiyasının üzvü Alan Mil türklərin Kiprdən getməsi ilə bağlı açıqlama vermişdir. O, Kiprin Aİ daxilində ikinci neft və təbii qaz istehsalçısı olacağını və Avropa ictimaiyyətinin bu ehtiyatları onların əlindən almasına icazə verməyəcəyini söyləmişdir. Açıqlamasında Mil qeyd etmişdir ki, Britaniyanın vəzifəsi Türkiyənin Kiprdən getməsini tələb etməkdir (1). Milin dedikləri ifrat ritorika kimi qəbul edilsə də, Britaniya rəsmisinin bu cür mövqeyi İngiltərənin Kipr siyasətinə dəyişiklik etməsinə işarə ola bilər.

Regionun karbohidrogen potensialı nəhəng ölkələrin diqqətini bu regiona yönəltmişdir. Türkiyə, Suriya, Livan, İsrail və Misir torpaqları ilə bitişik Şərqi Aralıq dənizi hövzəsində neft və qaz yataqları aşkar edilmişdir. Kipr və İsrail sahillərində kəşf edilmiş təbii qaz ehtiyatları hesabına Aİ-nin Rusiyadan asılılığının azalacağı düşünülür. Regionun siyasi cəhətdən qeyri-sabit olması bu iqtisadi potensialın qiymətləndirilməsinə mane olacaq. Bu səbəbdən ABŞ və İngiltərə tez bir zamanda öz mənfəətləri naminə problemlərin həllinin tərəfdarıdırlar. Kiprlə bağlı danışıqların davam etdirilməsini də bu səbəbdən zəruri hesab edirlər.

Aİ-nin Rusiyadan enerji asılılığını azaltmaq imkanına malik olan bu hövzə Türkiyənin də marağındadır. Türkiyə enerji terminalı olmaqla bu regionun lap yaxınlığında yerləşir. Türkiyənin təbii qazın nəqli üçün körpü mövqeyində olması onun bu regionda vəziyyətini gücləndirir. Türkiyə özü də kəşfiyyat fəaliyyətinə başlayıb. Bu məqsədlə 2011-ci ilin 21 sentyabrında Türkiyə və "ŞKTR" arasında "Kontinental Şelf zonasının delimitasiyası haqqında müqavilə" imzalamışdır. Daha sonra TPAO-ya regionda neft və təbii qaz yataqlarının kəşfiyyatı icazəsi verilmiş və Qoca Piri Rəis gəmisi ilə kəşfiyyat fəaliyyətinə başlanmışdır (8).

Adada həyata keçirilən bütün iqtisadi layihələr İngiltərənin iqtisadi maraqlarına ziddir. Britaniyanın bəyanatları və davranışları da bunu təsdiqləyir. Məsələn, Aİ-nin 2014-cü ilin 23-24 oktyabrında Brüsseldə keçirilmiş sammitində Devid Kemeron Kiprin yunan rəhbərliyinin Şərqi Aralıq dənizində birtərəfli qaydada elan etdiyi müstəsna iqtisadi zonaya etiraz edərək Kipr problemi həll edilmədən Kiprin müstəsna iqtisadi bazasının olmasının qeyri-mümkün olduğunu bildirmişdir (8). Sammitdə Kemerona cavab olaraq Almaniya baş naziri Angela Merkel isə bütün dövlətlər kimi Kiprin də müstəsna iqtisadi zonasının ola biləcəyini demişdir. Londonla yanaşı Ankara və Vaşinqton nümayəndələri də karbohidrogen yataqlarının Kipr problemi həll edilmədən istismar edilməməli olduğunu bəyan etmişdirlər.

Şərqi Aralıq dənizi regionunda son dövrdə baş verən hadisələr bölgədəki karbohidrogen ehtiyatlarının mövcudluğunun müəyyənləşdirilməsindən sonra xüsusi əhəmiyyət kəsb etmişdir. Kiprin yunan rəhbərliyi Kipr Respublikasının səlahiyyətlərini əlində cəmləşdirərək adanı təkbaşına idarə etməyə çalışır. Aşkar edilmiş karbohidrogen yataqlarında axtarış-kəşfiyyat işləri ilə bağlı müstəsna iqtisadi zonanın və dəniz yurisdiksiya sahələrinin sərhədlərinin müəyyənləşdirilməsi haqqında sazişlərdə adanın yeganə təmsilçisi olduğu iddiası ilə hərəkət etməsi, adanın cənubunda karbohidrogen yataqları ilə bağlı birtərəfli siyasət həyata keçirməsi Kipr probleminin yeni mahiyyət qazanmasına, problemə enerji təhlükəsizliyi və enerji geosiyasəti aspektlərini əlavə etmişdir. Kiprinyunan rəhbərliyinin bütün Kiprin adından təkbaşına razılaşmaq hüququ yoxdur, kontinental şelf və müstəsna iqtisadi zonanın delimitasiyası haqqında imzaladığı sazişləri Türkiyə etibarsız hesab edərək beynəlxalq hüquqa zidd fəaliyyət elan etmişdir (3, s.3).

İngiltərə müstəsna iqtisadi bölgənin Kipr Respublikasına aid olduğunu təkid etməklə qarant dövlət statusundan irəli gələn hüquqlarının davam etməsinə çalışır. Bazaların yerləşdiyi bölgədə ərazi suları elan etməsi və kontinental şelf məsələsinin gündəmə gətirməsi, daha sonra Müstəsna İqtisadi Bölgə elan etməsi gözlənilir. Nəticədə regionun enerji balansını ciddi şəkildə dəyişəcək. Belə ki, Birləşmiş Krallıq həm region ölkələri ilə dəniz sərhədlərinin müəyyənləşdirilməsi ilə bağlı müqavilələr bağlamalı, həm də regionda kəşfiyyat və qazma işləri aparan şirkətlərlə lisenziyalaşdırma fəaliyyətlərinə başlamalıdır. İngilis şirkətləri də bölgənin təbii qaz yataqlarında söz sahibi olmağa başlamışdır. İngiltərənin ada üzərindəki varlığı tədricən hərbi sahədən iqtisadi sahəyə keçir. Annan Planı ilə öz bazalarını, adada varlığını, ərazi sularını təminat altına almaq istəyi adada hökmranlığının davamlı olduğunu göstərir. Beləliklə, Britaniya Millətlər Cəmiyyətinin üzvü kimi qələmə verilən Akrotiri və Dikeliya hərbi bazalarını qoruyub saxlamaqla yanaşı İngiltərə Kipr adasının neft-qaz potensialından da öz maraqları üçün istifadə etməyə, Kiprdə yeni enerji siyasətini həyata keçirməyə çalışır.

Ticarətlə yanaşı, enerji və hərbi baxımdan strateji əhəmiyyət daşıyan Şərqi Aralıq dənizi özündə Misir, Liviya, Tunis, İtaliya, Sloveniya, Xorvatiya, Bosniya və Herseqovina, Çernoqoriya, Albaniya, Yunanıstan, Türkiyə, Suriya, Livan, Fələstin və İsrail də daxil olmaqla bir çox subyektləri birləşdirir. Enerji mənbələrinin mövcud olduğu Orta Şərq ölkələri ilə Avropanın münasibətləri ərəb-İsrail müharibələri səbəbindən zəifləmiş, bu da enerji hərəkatına mənfi təsir göstərərək, Şərqi Aralıq dənizinin enerji geosiyasəti kontekstində əhəmiyyətini artırmışdır (5, s.427).

Levant bölgəsi adlandırılan Aralıq dənizinin şərqində yerləşən bu bölgədə karbohidrogen geosiyasəti çərçivəsində baş verəcək toqquşmalar və ya tərəfdaşlıq fəaliyyətləri beynəlxalq münasibətlərdə güc və iqtisadi balansı dəyişə bilər. Belə ki, Orta Şərqdən və Xəzər dənizindən əldə edilən karbohidrogen ehtiyatlarının Avropaya nəqlində mühüm rol oynayan Şərqi Aralıq dənizi bölgəsinin Levantdakı təbii ehtiyatların kəşf edilməsi ilə əhəmiyyəti daha da artmışdır. Ətrafında aşkar edilmiş təbii qaz və neft yataqları sayəsində Kipr adasının əhəmiyyətli potensiala malik olduğu görünür. ABŞ geosiyasi Araşdırmalar Mərkəzinin (USGS) karbohidrogen mənbələri ilə bağlı yayımladığı hesabatda adanın cənubu, Suriya, Livan və İsrail arasında olan hissədə 3,5 trilyon kub metr təbii qaz və 1,7 milyard barrel neft ehtiyatının aşkar edildiyi ifadə edilmişdir (12, s.47). Bu yataqların enerji ehtiyatlarının təsbit edilməsi və çıxarılması istiqamətində Kiprin yunan rəhbərliyinin birtərəfli təşəbbüsləri Kipr problemində yeni enerji böhranının yaranmasına səbəb olmuşdur (6, s.15).

**Nəticə**

Geosiyasi mövqeyinin üstünlükləri ilə yanaşı enerji təchizatının təmin edilməsində etibarlı tranzit marşrutları olan Şərqi Aralıq dənizi regionu soyuq müharibə dövründən indiyədək dövlətlərin maraqlarının toqquşduğu strateji region olmaqdadır. Xüsusilə, 2000-ci illərin əvvəllərindən Şərqi Aralıq dənizi regionunda aşkar edilən enerji yataqlarının sahilyanı ölkələr arasında dəniz zonaları ilə bağlı ziddiyyətlərə səbəb olması regionu enerji müharibələrinin yaşandığı coğrafiyaya çevirmişdir. Qlobal aktorların bölgəyə artan marağı Birləşmiş Krallığı burada baş verənlərə etinasız qalmamağa sövq edir. Kiprdə 3 qarant dövlətdən biri olan Böyük Britaniyanın siyasi, hərbi təhlükəsizlik, həmçinin iqtisadi, enerji təhlükəsizliyi və strateji baxımdan Şərqi Aralıq dənizi regionunda əhəmiyyətli maraqları vardır. Xüsusilə də, breksitdən sonrakı mərhələdə Britaniyanın regionda daha fəal siyasət həyata keçirəcəyi şübhəsizdir. Belə ki, Britaniyanın ənənəvi atlantikçi mövqeyi, Aİ üzvü olduğu dövrdə də milli maraqlara əsaslanan və Aİ-dən asılı olmayan siyasət yürütməsi bunun əyani sübutudur. Britaniyanın bazalarının mümkün kontinental şelf haqqına sahib olduğunu iddia etməsi bölgədəki enerji balansına ciddi şəkildə təsir göstərəcəkdir. Xüsusən də, Britaniyanın BP şirkətinin regionda açıq dəniz qaz yataqlarının perspektivdə istismarı ilə bağlı müəyyənləşdirdiyi və həyata keçirməyə çalışdığı strategiya Britaniyanı bölgədə yenidən zəruri bir aktora çevrilə bilmə ehtimalını artırır. Breksit prosesi ilə yanaşı Şərqi Aralıq dənizi və Kipr adasında mövcud bazalar ilə bağlı Birləşmiş Krallığın xarici siyasətini çətin mərhələ gözləyir. Bölgədəki enerji mənbələrində söz sahibi olma, yaxud bölgənin təhlükəsizliyində təsirli aktor olma məsələsində atacağı səhv addımlar bölgədə onsuz da mövcud olan problemlər də nəzərə alındıqda, Şərqi Aralıq dənizi bölgəsinin qlobal siyasət baxımından daha qarışıq vəziyyətə düşməsinə səbəb ola bilər.

## ƏDƏBİYYAT


1. Cyprus Problem-British MP Sir Alan Meal calls EU and UK to intervene in the conflict (2014, August) // https://cyprusscene.com
2. Dağlı U.U., Bayındır Ş. (1997). Proposals for the preservation of the existing settlement pattern in Marash region // Journal for Cypriot Studies, (3) 2
3. Ece J.N. (2014, december). Energy Wars in the Eastern Mediterranean // https://www.seanews.com.tr
4. Güvenc N. (1984). Kıbrıs sorunu Yunanistan ve Türkiye. İstanbul: Çağdaş Politika Yayınları
5. JoffeA.H. (2002). The rise of secondary states in the ıron age levant // Journal of the Economic and Social History of the Orient, 45(4), p. 425-467
6. Kepecioğlu H. (2008). Doğu Akdeniz deniz yetki alanları, İstanbul: Harp Akademileri Komutanlığı Yayınları
7. Kıbrıs Cumhuriyeti'nin Kuruluşuna İlişkin Temel Antlaşma (1960) // https://www.mfa.gov.tr
8. Özgöker U., Çelik H. (11-13 Aralık 2014 ). Kıbrıs'ta Enerji Politikaları ve İngiltere "İlgisi" // Uluslararasi boyutlarıyla Kıbrıs meselesi ve geleceği, Uluslararasi Sempozyum, Bildiriler, Atatürk Araştırma Merkezi, Gazimağusa
9. Satan A. (aralık 2012). Yeni Ingiliz Belgeleri Işiğinda Kıbrıs ve önemi // Yakın Dönem Türkiye Araştırmaları dergisi, sayı 6
10. Sonyel R.S. (1995). İngiliz yönetiminde Kıbrıs Türklerinin varlık savaşımı // Belleten Dergisi, 59 (224)
11. Uçarol R. (1978). 1878 Kıbrıs Sorunu ve Osmanlı-İngiliz Anlaşması (Ada'nın İngiltere'ye Devri), İstanbul
12. Winrow G.M. (2018). Discovery of energy reserves in the levant and impacts on regional security // Uluslararası İlişkiler, 15 (60)
13. Zia N. (1975). Kıbrıs'in İngiltere'ye geçişi ve adada kurulan ingiliz idaresi, Ankara: TKAE Yayınları


## *РЕЗЮМЕ*

***Сабина АЛИЕВА***

### *Энергетическая политика Великобритании на Кипре*

***Ключевые слова:*** *остров Кипр, Великобритания, военные базы, энергетические интересы*

Великобритания имеет 2 военные базы на острове Кипр: Дикелия и Акротири. У Великобритании есть политические и военные интересы на острове. И экономический интерес Великобритании к острову постепенно возрастает. Все экономические проекты на острове, которые осуществляет греческое правительство Кипра со странами региона противоречат экономическим интересам Великобритании. Настаивая на том, что исключительная экономическая зона принадлежит Республике Кипр, Соединенное Королевство стремится сохранить свои права, вытекающие из статуса государства-гаранта. Предполагается объявить территориальные воды в районе, где расположены базы, и поднять вопрос о континентальном шельфе, а затем объявить Исключительную экономическую зону. Если Великобритания пойдет на этот шаг, это существенно изменит энергетический баланс региона. Предполагается, Соединенное Королевство планирует заключить соглашения со странами региона об

определении морских границ, а также начать лицензирование деятельности с компаниями, проводящими разведку и бурение в регионе. В то же время британские компании начали влиять на газовые месторождения региона. Британское присутствие на острове постепенно переходит от военного к экономическому.


**_SUMMARY_**

**_Sabina ALIYEVA_**

**_Energy Policy of the UK in Cyprus_**

**_Keywords:_** _Cyprus Island, Great Britain, military bases, energy interests_

The UK has 2 military bases on the island of Cyprus: Dikelia and Akrotiri. The UK has political and military interests on the island. And UK's economic interest in the island is gradually increasing. All economic projects on the island carried out by the Greek government of Cyprus with the countries of the region contradict the economic interests of the Great Britain. By insisting that the exclusive economic zone belongs to the Republic of Cyprus, the United Kingdom seeks to maintain its rights arising from the status of a guarantor state. It is expected to declare territorial waters in the area where the bases are located and raise the issue of the continental shelf, and then declare the Exclusive Economic Zone. If the UK takes this step, it will significantly change the energy balance of the region. Thus, the United Kingdom should conclude agreements with the countries of the region on the definition of maritime borders, as well as start licensing activities with companies conducting exploration and drilling in the region. At the same time, British companies began to have a say in the region's natural gas fields. Britain's presence on the island is gradually shifting from the military to the economy.